# BAKI DÖVLƏT UNİVERSİTETİ

Bakı Dövlət Universitetinin Elmi Şurasının
2021-ci il 28 dekabr tarixli iclasının (protokol № 12)
qərarı ilə qəbul edilmişdir

# BAKI DÖVLƏT UNİVERSİTETİNİN BEYNƏLMİLƏLLƏŞMƏ SİYASƏTİ

**BAKI - 2021**

## Preambula

Bakı Dövlət Universitetinin (BDU) Beynəlmiləşmə Siyasəti sənədində qarşıya qoyulmuş başlıca məqsədlərdən biri ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı regionda elm-təhsil üçün dünya səviyyəli bir platformaya çevrilməkdir. Məlum olduğu kimi, yaşadığımız müasir dövrdə beynəlmiləlləşmə universitetlərin mühüm strateji hədəflərindən biri hesab olunur. Bu baxımdan da, BDU özünün qlobal əhatə dairəsini genişləndirməyə, tələbələrin beynəlxalq imkanlardan faydalanma perspektivlərini artırmağa və universitet cəmiyyətinin mədəni müxtəlifliyini və dünyaya inteqrasiyasını təşviq etmə istiqamətinə xüsusi önəm verir.

Ali təhsil sahəsində beynəlmilləşmənin xüsusi əhəmiyyət kəsb etdiyi müasir zamanda beynəlxalq əlaqələr universitetlərin inkişafının və beynəlxalq imicinin əsas göstəricilərindən hesab olunur. BDU-da beynəlxalq fəaliyyət dairəsinin genişləndirməsi, akademik əməkdaşlıq imkanlarının artırılması, dünyanın tanınmış aparıcı ali təhsil müəssisələri ilə, beynəlxalq assosiasiyalarla əlaqələrin qurulması və beynəlxalq reytinqlərdə iştirakın təmin olunması istiqamətində mütəmadi olaraq işlər görülür.

## 1. Ümumi müddəalar

1.1. “Bakı Dövlət Universitetinin 2021-2030-cu illər üzrə beynəlmiləlləşmə Siyasəti” (bundan sonra Beynəlmiləlləşmə sənədi) “BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planı” sənədinin bir hissəsi olaraq Universitetdə qlobal miqyasda baş verən dəyişiklikləri mütəmadi olaraq nəzərə alınmaqla çevik qaydada addımların atılması ilə Universitetin ictimai etimad və nüfuzun qorunmasına, diplomatik nümayəndəliklərlə əməkdaşlığa, yeni xarici əlaqələrin qurulmasına, beynəlxalq əməkdaşlıq çərçivəsində elmi tədqiqat istiqamətlərinin artırılmasına beynəlxalq fəaliyyət dairəsinin daim təkmilləşdirilməsi, daxili və xarici məlumatlandırma vasitəsilə təlim-tədris, tədqiqat-inkişaf və təcrübə-bilik mübadiləsinin inkişaf etdirilməsinin ümumi yanaşmalarını, əsas prinsiplərini və mexanizmini əks etdirir.

1.2. Beynəlmiləlləşmə fəaliyyəti Universitetin inkişafının prioritet istiqamətlərindən biridir və əmək bazarının tələblərinə cavab verən kadr hazırlığının təkmilləşdirilməsinə və müasir standartlara cavab verməsinə dəstək verir.

1.3. Beynəlmiləlləşmə sənədi prioritet istiqamətlər üzrə beynəlxalq əməkdaşlığın səmərəliliyinin artırılması, uzun illər ərzində yaradılmış beynəlxalq əlaqələrin qorunub

saxlanılması və daha da inkişaf etdirilməsi ilə yanaşı yeni əməkdaşlıqların qurulması, Universitetin beynəlxalq reytinq (QS, THE və s.) sıralamalarında göstəricilərinin yüksəldilməsi, beynəlxalq rəqabətliliyinin daha da artırılması üzrə qarşılıqlı əlaqədə olan kompleks tədbirləri əhatə edir.

1.4. Beynəlmiləlləşmə sənədi Universitetin strateji idarəedilməsinin tərkib hissəsidir və aşağıdakı digər sənədlərlə birgə baxılır: missiya, “BDU-nun 2021-2030-cu illər üçün Strateji İnkişaf Planı”, akademik siyasət, universitetdə keyfiyyətin təmin olunması sahəsində siyasət və s.

1.5. Beynəlmiləlləşmə sənədi üzrə fəaliyyət Universitetin bütün müvafiq struktur bölmələrinin birgə iştirakını nəzərdə tutaraq həyata keçirilir.

1.6. Beynəlmiləlləşmə sənədi rəsmi statusa malikdir və geniş ictimaiyyətə BDU-nun www.bsu.edu.az saytı ilə çatdırılır.

1.7. Beynəlmiləlləşmə sənədi hazırlanarkən aşağıdakı sənədlərə istinad edilmişdir:

- Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu;
- Elm haqqında Azərbaycan Respublikasının Qanunu;
- Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası;
- Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi;
- 2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı;
- BDU-nun Nizamnaməsi;
- 2021-2030-cu illər üzrə BDU-nun Strateji inkişaf planı;
- Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 noyabr tarixli 451 nömrəli Qərarı ilə təsdiq edilmiş “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində beynəlxalq ikili diplom proqramlarının həyata keçiriləcəyi xarici tərəfdaş ali təhsil müəssisələrinin, ixtisas proqramlarının və təhsil səviyyələrinin seçim Qaydaları;

- “Azərbaycan Respublikası vətəndaşlarının xarici ölkələrdə, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında təhsil alması Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı;
- “Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının verilməsi Qaydaları, o cümlədən təhsil qrantının məbləği”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərarı;
- “İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin vətəndaşları üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrində təhsil qrantının verilməsi Qaydaları, o cümlədən təhsil qrantının məbləği”nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.

1.8. Beynəlmiləlləşmə sənədi nəzarətdə saxlanılır və tələblərin dəyişməsinə uyğun olaraq yenidən işlənilir.

1.9. Beynəlmiləlləşmə sənədi BDU-nun Elmi Şurası tərəfindən müzakirə edilərək qəbul olunur və BDU-nun rektoru tərəfindən təsdiq olunur.

## 2. Beynəlmiləlləşmə sahəsində Universitetin siyasəti, missiyası və gələcəyə baxışı

2.1 Azərbaycan Respublikasında ali təhsil sisteminin inkişaf etdirilməsi və beynəlxalq rəqabətliliyinin artırılması siyasətinə uyğun olaraq və qlobal miqyasda baş verən yeniliklər nəzərə alınmaqla, Bakı Dövlət Universiteti beynəlxalq standartlara uyğun sürətli və çevik fəaliyyət göstərməyi bacarmalıdır. Bunun üçün tədris, təlim, elm və tədqiqat kimi sahələr üzrə beynəlxalq təcrübə mübadiləsinə xüsusi diqqət yetirməklə beynəlxalq imkanları müəyyənləşdirmək və onlardan məqsədyönlü şəkildə faydalanmaq; beynəlxalq fəaliyyət istiqamətləri üzrə effektiv daxili və xarici əlaqələr qurmaq; Universitetin beynəlxalq əlaqələrini daima inkişaf etdirmək və genişləndirmək; xüsusilə, universitetlərarası mübadilə, o cümlədən beynəlxalq mübadilə proqramları (Erasmus + KA 107, Mövlane və s.), ikili dərəcə proqramları və birgə elmi tədqiqatların aparılması istiqamətində fəaliyyətin genişləndirilməsinə diqqət yetirmək tələb olunur.

2.2 Beynəlmiləlləşmə sahəsində BDU-nun missiyası “2021-2030-cu illər üzrə BDU-nun Strateji inkişaf planı”nda nəzərdə tutulmuş müddəaların həyata keçirilməsinə, xüsusilə

Planın beynəlxalq əlaqələr istiqamətlərində müəyyən edilən hədəflərə nail olunmasına dəstək verməkdən ibarətdir.

2.3 Beynəlmiləlləşmə sahəsində gələcəyə baxış BDU-nun ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı yaxın gələcəkdə beynəlxalq birgə dərəcə və ikili diplom proqramları portfelini genişləndirməyi, coğrafi prioritetləri nəzərə alaraq əcnəbi tələbə potensialına yönəlik effektiv və məqsədyönlü addımlar atmaqla daha çox əcnəbi tələbənin cəlbinə nail olmağı, müasir beynəlxalq təcrübənin BDU-da tətbiqi məqsədi ilə xarici universitetlər və beynəlxalq təşkilatlarla tədris proqramlarının inkişafı və elmi-tədqiqat qrant layihələrinin icrası üzrə əməkdaşlığı və nüfuzlu beynəlxalq reytinqlərdə daha da yüksək mövqe əldə etməklə regionda və dünyada BDU-nun etimadını daha da artırmağı özündə ehtiva edir.

## 3. Beynəlmiləlləşmə siyasətinin əsas məqsədləri

3.1. Beynəlmiləlləşmə sənədinin və onun reallaşdırılması istiqamətində BDU-nun beynəlmiləlləşmə fəaliyyətinin əsas məqsədləri aşağıdakılardır:

- Beynəlxalq fəaliyyət dairəsini genişləndirmək, dünyanın tanınmış aparıcı ali təhsil müəssisələri, beynəlxalq assosiasiyaları və təşkilatları ilə akademik, elmi-tədqiqat və sosial-mədəni əməkdaşlıq imkanlarını artırmaq və beynəlxalq reytinqlərdə ən aparıcı universitetlər sırasına daxil olmaq;
- Regionda və dünyada BDU-ya olan etimadı daha da artırmaq;
- Beynəlxalq mobillik proqramları üzrə tələbə və akademik-inzibati heyətin mübadiləsi və beynəlxalq ikili diplom proqramları portfelini genişləndirmək;
- Keyfiyyət meyarlarına xüsusi diqqət yetirməklə, əcnəbi tələbə sayını artırmaq;
- Beynəlxalq şirkətlərdə təhsilalanlar üçün müxtəlif sahələr üzrə müvafiq təcrübələri təşkil etmək;
- Elmi Kitabxana resurslarını rəqəmsal və müxtəlif xarici dillərdə dərc olunmuş ədəbiyyatlarla zənginləşdirmək;
- Beynəlxalq tələblərə uyğunlaşdırılan və beynəlxalq akkreditasiyadan keçən ixtisasların, tədris proqramlarının sayını artırmaq;
- Tədris və təlim prosesinə, elmi-tədqiqat fəaliyyətinə cəlb edilən əcnəbi müəllimlərin və tədqiqatçıların sayını artırmaq;

- Xarici universitetlərlə ortaq elmi-tədqiqat işlərinə cəlb olunan alim və tədqiqatçılarının sayının artırılmasına maliyyə və inzibati dəstək vermək;
- Əcnəbi məzunların assosiasiyasını yaratmaq.

## 4. Beynəlmiləlləşmə fəaliyyətinin əsas prinsipləri və dəyərləri

Beynəlmiləlləşmə fəaliyyətinin səmərəliliyi və əldə edilən nəticələrin keyfiyyətinin yüksəldilməsi səbəb-nəticə əlaqələrinin nəzərə alınması, bütün hadisələrin bütöv bir sistemin bir-biri ilə əlaqəli komponentləri kimi şərh edilməsi və məntiqi ardıcıllığın gözlənilməsi, davamlı inkişaf, məqsədyönlülük, obyektivlik, şəffaflıq kimi prinsiplərin gözlənilməsi ilə əldə edilir.

Beynəlmiləlləşmə siyasətinin formalaşması və icrası zamanı aşağıdakı dəyərlər diqqət mərkəzində olmalıdır:

- **Kollegiallıq:** həmkarlara, kollektivə və bütövlükdə Universitetə hörmətlə yanaşmaq, əməkdaşları və tələbələri qarşılıqlı anlayış, səmimilik və etibarlılıq kimi dəyərlərə söykənən ortaq bir inkişaf məqsədi ətrafında cəmləşdirmək;
- **Seçim azadlığı və elmi kəşflər:** fərdi və kollektiv zəkaya, marağa, innovativliyə, ixtiraçılığa və yaradıcılığa əsaslanan bilik qazanmaq üçün seçim azadlığı və elmi kəşflərə can atma kimi meyilləri dəstəkləmək;
- **Mükəmməllik:** tədrisdə, elmdə və idarəçilikdə mükəmməlliyi yenilikçilik və yaradıcılıq meyarlarına əsaslanmaqla qətiyyət və praqmatizmlə təşviq və inkişaf etdirmək;
- **İnklüzivlik və müxtəliflik:** inklüzivlik və müxtəlifliyi təmin etmək üçün özünü cavabdeh hesab etmək;
- **Sosial məsuliyyət:** ümumi məqsəd və vəzifələrə nail olmaq üçün öz üzərinə məsuliyyət götürmək.

## 5. Beynəlmiləlləşmə fəaliyyətinin əsas istiqamətləri

“2021-2030-cu illər üzrə BDU-nun Strateji inkişaf planı”nda qeyd edildiyi kimi beynəlmiləlləşmə BDU-nun mühüm strateji hədəflərindən hesab olunur və Universitet özünün qlobal əhatə dairəsini genişləndirməyə, tələbələrin beynəlxalq imkanlardan faydalanma perspektivlərini artırmağa və universitet cəmiyyətinin mədəni müxtəlifliyini və dünyaya

inteqrasiyasını təşviq etmə istiqamətində fəaliyyət göstərir. Bu baxımdan BDU-da aparılan beynəlmiləlləşmə fəaliyyətinin əsas istiqamətləri aşağıdakılardır:

- BDU-da akademik heyət və alimlərin, habelə tələbə, magistrant və doktorantların inkişafına təkan verən mübadilə proqramlarının sayının artırılması;
- xarici ali təhsil müəssisələri ilə birgə tədris və ya ikili diplom proqramlarının həyata keçirilməsi;
- tələbələrin xarici tərəfdaş universitetlərə qısamüddətli (bir həftədən iki aya qədər) və uzunmüddətli (bir və ya iki semester) təhsil səfərinə getmələri üçün işlək qarşılıqlı əməkdaşlıq müqavilələrinin sayının artırılması;
- Tədris proqramlarının beynəlxalq məzmununun artırılması və beynəlxalq tələblərə uyğunlaşdırılması;
- Əcnəbi müəllim heyətinin cəlb edilməsi ilə tədris və təlim prosesinin beynəlmiləlləşdirilməsi;
- Professor-müəllim heyətinin və tədqiqatçıların xarici tərəfdaş universitetlərdəki həmkarları ilə ortaq elmi-tədqiqat işlərinə cəlb olunmasının təşviq edilməsi;
- Əcnəbi təhsilalanların sayının artımına nail olmaq.

## 6. Beynəlmiləlləşmə fəaliyyətinin iştirakçıları və infrastruktur

6.1. BDU-da beynəlmiləlləşmə fəaliyyətinin əsas iştirakçıları aşağıdakılardır:

- təhsilalanlar (bakalavr, magistrant, doktorant, dissertant);
- Universitetin inzibati heyəti;
- Universitetin akademik və tədris-köməkçi heyəti;
- elmi-tədqiqat qurumlarında çalışan elmi işçilər;
- BDU-nun əməkdaşlıq etdiyi yerli və xarici elm və təhsil müəssisələrinin əməkdaşları;

6.2. Beynəlmiləlləşmə fəaliyyətin təşkili və həyata keçirilməsi BDU-nun Beynəlxalq əlaqələr və Xarici tələbələrlə iş şöbələri tərəfindən icra olunur.

6.3. Beynəlmiləlləşmə siyasətinin icrası üçün məsul olan struktur bölmələrinin əməkdaşları üçün tələblər:

- Mükəmməl xarici dil bilikləri (minimum B2 səviyyəsi);
- Kreativlik,təşəbbüskarlıq,planlama və təşkilatçılıq bacarıqları;
- Yüksək kommunikasiya və biznes ünsiyyət bacarıqları;

- Xaricdə təhsil alanlara üstünlük verilməsi.

## 7. Beynəlmiləlləşmə sahəsində prioritetlər və qiymətləndirmə meyarları

2021-2030-cu illər üçün Beynəlmiləlləşmə istiqamətində əsas effektivlik göstəriciləri (Key Performance Indicators (KPI)) aşağıdakılardır:

- BDU-nun əməkdaşları və tələbələrin akademik mübadilə proqramlarında iştirak sayının daha da artırılması;
- Dünyanın nüfuzlu universitetləri ilə ikili diplom və ortaq layihələr istiqamətində əməkdaşlığın inkişaf etdirilməsi (hər il minimum 2-3 proqram olmaqla);
- Əcnəbi təhsilalanların sayının ümumi tələbə sayına nisbətinin artırılması;
- Əcnəbi müəllimlərin sayının akademik heyətin sayına nisbətinin artırılması;
- Beynəlxalq elmi-tədqiqat qrantlarının sayının artırılmasına nail olunması;
- 2030-cu ilə kimi ali təhsil müəssisələrinin THE, QS və digər reytinqlərinin müəyyən nominasiyaları üzrə BDU-nun 250-500-cü yerlərə yüksəldilməsinə nail olunması.

## 8. Beynəlmiləlləşmə siyasətinin həyata keçirilməsi mexanizmləri

8.1. BDU-da beynəlmiləlləşmə fəaliyyətində idarəetmənin optimallaşdırılması və təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlıq sahəsində effektivliyin artırılması, əcnəbi vətəndaşların Universitetdə təhsilinin təşviqi və tədrisin beynəlxalq standartlara uyğun təşkili məqsədi ilə müvafiq struktur bölmələri yaradılmışdır.

8.2. Beynəlmiləlləşmə sənədinin icrasını optimallaşdırmaq üçün aşağıdakılar lazımdır:

- Universitetin əməkdaşlarının və struktur bölmələrinin beynəlmiləlləşmə fəaliyyətinin idarə edilməsi mexanizminin təkmilləşdirilməsi.
- Beynəlxalq mübadilə proqramları haqqında məlumat sessiyalarının təşkili;
- Beynəlmiləlləşmə siyasətin icrasında şəffaflığın və düzgünlüyün təmin olunması və məmnunluğun müəyyən edilməsi məqsədi ilə əməkdaşlar və təhsilalanlar arasında sorğuların keçirilməsi;

8.3. Beynəlmiləlləşmə sənədinin həyata keçirilməsi subyektləri BDU-nun inzibati və akademik heyəti, alimləri, doktorantları, magistrantları, tələbələri, habelə əməkdaşlıq

edilən ali təhsil müəssisələri, tərafdaş qurumlar, müxtəlif mülkiyyət formalı sənaye müəssisələri, dövlət orqanlarıdır.

8.4. BDU-nun əməkdaşları və tələbələrin akademik mübadilə proqramlarında iştirakı prosesində aşağıdakı tələblər nəzərə alınır:

**Tələbləri üçün tələblər:**

- Ümumi orta müvəffəqiyyət göstəricisi 75-dən yuxarı;
- II və III kurs bakalavr, I kurs magistr tələbələri;
- Dil sertifikatı (IELTS, TOEFL sertifikatının olması arzuolunandır);
- Tərcümeyi hal;
- Akademik transkript;
- Motivasiya məktubu.

**Əməkdaşlar üçün tələblər:**

- Tərcümeyi hal;
- Motivasiya məktubu;
- Elmi əsərlərin siyahısı.

8.5. BDU-da xarici tərəfdaş ali təhsil müəssisələrinin əməkdaşlıq üçün seçimi aşağıdakı meyarlar üzrə aparılır:

- Xarici tərəfdaş ali təhsil müəssisəsinin beynəlxalq reytinqlərdə – “Times Higher Education (THE) World University Rankings” və “Academic Ranking of World Universities (Shanghai)” yer alması (ilk minlikdə);
- Xarici tərəfdaş ali təhsil müəssisəsinin fəaliyyət istiqamətlərinin BDU-nun inkişaf prioritetlərinə uyğun olması.